İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

15 MART 2021-Cİ İL №005 (128)

Səh. 2 TEZ-TEZ YANAN ƏLLƏRİM - İBRAHİMXƏLİL YAZIR

Səh. 3 HƏR YAXŞILIQ BİR SƏDƏQƏDİR- HACI BƏKİROĞLU YAZIR

Səh. 4 MÜƏLLİMLƏR EVİNİN RƏHBƏRİNİN MÜSAHİBƏSİ

Səh. 5 HƏYATIN NİDERLAND VERSİYASI - AFİQ MUXTAROĞLU YAZIR

Səh. 5 BÖYÜK QÜVVƏNİN ÇƏKİSİ - ESMİRA ƏLƏKBƏRLİ YAZIR

Səh. 6 “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” - MİRZƏ MƏMMƏDOĞLUNUN TƏRCÜMƏSİNDƏ

Səh. 7 YAŞILLAŞDIR Kİ, GÖZƏLLƏŞSİN - LAMİYƏ HACIYEVA YAZIR

## BAŞ NAZİR TÜRKİYƏ SƏFİRİ İLƏ GÖRÜŞÜB

Gürcüstanın baş naziri İrakli Qaribaşvili Türkiyənin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqanla görüşüb. Bu barədə hökumət başçısının Mətbuat xidmətindən bildirilib.

Tərəflər Gürcüstan və Türkiyə arasında strateji tərəfdaşlıq və ikitərəfli əməkdaşlığın gündəliyində duran əsas məsələləri müzakirə ediblər.

İ.Qaribaşvili Gürcüstanın suvenerliyi və ərazi bütövlüyü, həmçinin Avroatlantik qurumlara inteqrasiyasına göstərdiyi möhkəm dəstəyə görə Türkiyəyə təşəkkürünü bildirib.

Müzakirə zamanı iqtisadi əməkdaşlıq məsələləri də nəzərdən keçirilib. Qeyd olunub ki, birgə regional layihələr səmərəli



strateji tərəfdaşlığın, dayanıqlı inkişaf, Gürcüstan və Türkiyə arasında etibarlı əməkdaşlığın aydın nümunəsidir.

Görüşdə həmçinin COVID-19 pandemiyası ilə mübarizə, bu sahədə əməkdaşlıq və birgə səylər ətrafında da fikir mübadiləsi aparılıb.

## SƏHİYYƏ NAZİRİ: COVID-19 ƏLEYHİNƏ PEYVƏNDLƏMƏ MARTIN 15-DƏN BAŞLAYACAQ



Gürcüstanın səhiyyə naziri Ekaterine Tikaradzenin sözlərinə görə, ölkədə koronavirusa qarşı peyvəndləmə prosesinə martın 15-dən başlanılacaq.

Səhiyyə naziri bildirib ki, proses 82 tibb müəssisəsində həyata keçiriləcək və peyvənd ilk olaraq tibb işçilərinə vurulacaq.

Qeyd edək ki, Gürcüstana COVID-19 əleyhinə “AstraZeneca” vaksininin 43 200 dozadan ibarət ilk partiyası martın 13-ü çatdırılıb.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 3600-Ü ÖTÜB



Martın 15-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan dünyasını dəyişənlərin sayı 3650 nəfərə çatıb. Bu haqda xüsusi yaradılmış www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 275148 nəfər, sağalanların sayı isə 268565 nəfər olaraq göstərilib.

Ölkə üzrə karantin rejimində 211 nəfər, stasionar nəzarətdə 1358 nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı isə 131 nəfər olaraq göstərilib.

## HÖKUMƏT ADMİNİSTRASİYASINA YENİ RƏHBƏR TƏYİN EDİLİB

İlia Darçiaşvili Gürcüstan Hökuməti Administrasiyasının rəhbəri təyin olunub.

Bununla bağlı baş nazir İrakli Qaribaşvili qərar imzalayıb.

O, hökumət başçısı administrasiyasının yeni rəhbərinə fəaliyyətində uğurlar arzulayıb.

İ.Darçiaşvili təyinatdan öncə Gürcüstanın Polşadakı səfiri olub. Onun diplomatik xidmətdə çoxillik təcrübəsi var.

Qeyd edək ki, administrasiyanın keçmiş rəhbəri Kaxaber Kemoklidze fevralın 24-ü istefa verib.



# TEZ-TEZ YANAN ƏLLƏRİM



Bizi – bəzən hətta zoğal çubuğu ilə hədələyərək – belə öyrədirdilər: qədim Romada qanunları musiqinin müşayiəti ilə səsləndirirdilər ki, yadda qalsın.

Uşaqlıq-şagirdlik dövrünə nə var? Özünü arada-sırada hətta İbrahim peyğəmbərin yerinə qoyan da tapılırdı: atəşə verilirsən, oda atılırsan və birdən-birə həmin qədim-qayım möcüzə təkrar olunur; yəni alov dilləri qəfildən gözəl-göyçək güllərə çevrilir. Özü də sanki düz ulduzlardan gələn sehrli-ecazkar musiqinin müşayiəti ilə.

Hər şeyin yaxşısını, həqiqisini, doğrusunu axtarırdıq: şəkilli kitabların, dostun, xizəyin, əzgilin, qələmin, sözün, gözlərin...

Amma, Cəlaləddin Rumi demiş, sən demə, mavi şüşədən baxanda hətta Günəş də mavi görünürmüş.

Sonra bizim "mavi şüşə"dən deyil, öz gözlərimizlə – nəzərimizdə, həm də həzərat həqiqətin gözləri ilə – baxmaq dövrümüz də gəldi. Amma ağlımıza da gəlməzdi ki, inqilabiliklər, yuvamızı cənnətə çevirmək cəhdləri bəzən cəhənnəmlə də nəticələnə bilər. Fəlakətlər üzərindən mənsəb qazananlarımızın ağ günləri sadəcə ağ kəfənlərdə qalmadımı?

Yalnız həqiqət istəyirdik: evdə, küçədə, stadionda, hüzr, ya da hüzur yerlərində.

Məsələn, futbolda oyundankənar vəziyyətə düşəndə də, üzüntülü uduzanda da, müxtəsəri, hər dəfə hakimləri günahlandırırdıq; çox vaxt günahsız müqəssirləri. Bizdə təqsirmi tapılardı? Axı, həqiqət carçılarıydıq! Özgələrini günah keçilərinə çevirmək çal-çağır asan imiş...

...Yadınızda qalmış olar. Sokrat ona edam ayağında zəhəri necə içəcəyi barədə məsləhətləri dinləyib, acı təəssüflə demişdi: "Siz Sokrat haqqında deyil, həqiqət haqqında düşünün".

Əsrlər sonrası, bəlkə də eynən Sokratsayağı, yalnız həqiqət haqqında düşünürdük. Aristotelin (Ərəstun) fəlsəfənin sirlərini öyrəndiyi müəllimi və dostu Platonun (Əflatun) ideyalar təlimini tənqid edərək dedikləri dilimizdə əzbər olmuşdu: "Platon dost olaraq mənim üçün əzizdir, amma həqiqət ondan da əzizdir".

Biz inkarlara, hətta inkarların inkarına da başladıq: tısbağalar misallı, çıxdığımız çanaqları, gəlib-gedən qonaqları, ata sözlərini, köşək gözlərini. Çünki həqiqət onlardan əziz idi.

Tarixə "Həqiqət – şərabda, sağlıq isə sudadır" ("İn vino veritas, in aqua sanitas") kimi düşmüş qədim latın ifadəsini kimdən və haçan eşitdiyimi dəqiqliyi ilə xatırlamıram. Xatırladığım həqiqəti milli içkimiz olan çayda, ayranda gördüyümüz çağlardır. Amma həqiqəti sadəcə olaraq bəyan eləmək az imiş. Üstəlik də bəzi həqiqətlər küfr, bidət sayıldığından əllərimizin daşlar altda qaldığı günlər də az olmadı. Yalanların bitmək bilmədiyi yerlərdə doğrulara keçid olmurdu, aşırımları adlamaq müsibət çətin gəlirdi. Cəbhələşmələr, qütbləşmələr, araları betonlamalar çoxalırdı.

...Bütün hallarda, həqiqət duyğuları canımıza, qanımıza o dərəcədə hakim kəsildi ki, yaşıdlarımızın bir çoxları övladlarına "Həqiqət" adını da verdilər. Amma bu adı qızına verən dedi ki, bu, qız adıdır, oğluna verən də israr elədi ki, yox, bu, oğlan adıdır. Ömrümüzün oğlan çağlarının bir hissəsi də belə mübhəm mübahisələrə getdi. Hətta "Həqiqət nədir?" əvəzinə, "Həqiqət kimdir?" sualları ilə də yaşadıq.

Bizə belə gəlirdi ki, Sokratdan, Platondan, Aristoteldən, eləcə də sonrakı dövrlərin dühalarından xeyli boşluqlar qalmaqdadır və bu boşluqları doldurmaq da bizə düşür. Amma maraqlı, bir az da arazbarı ağrılıdır: bir halda ki, həqiqətə bu qədər könül verdik, uğrunda da bu qədər boranlar-qarlar gördük, onda nədən bu yolda kor olanlarımız da bir bu qədər çox oldu? Yəni həqiqətin işığı bu qədərmi nankordur?

Onda bizə belə gəlirdi ki, biz xoşbəxt gələcəyimizi qururuq, amma bəzən gələcək adı altında keçmişləri eşələyib-tökməkdən boyunlarımız da əyrimçə qaldı.

Sonra yollarımız da ayrıldı: hərəmiz həqiqətin bir tərəfindən tutduq; sahil sandığımız tərəfinə yan aldıq. Birilərimiz həqiqət nəzəriyyəsində yaşadıq, birilərimiz də həqiqəti mifoloji təfəkkür kateqoriyası olaraq mənimsədik. Bəzilərimiz də həqiqəti dəyişən, ya da dəyişməyən norma olaraq gördük. Hələ fəlsəfədə, psixologiyada, ədəbiyyatda, musiqidə, həyatda və həyatdə həqiqət motivləri...

Mən də bir vaxtlar İbrahim (Xəlil) olaraq bəzi həqiqətləri odda görərkən belə zənn edirdim ki, bir halda ki, adım peyğəmbər adıdır, deməli, atəş mənə zərər verməz. Hələ Başkeçid, Əyriqar, Yastıqar tərəflər bir yana, hətta arada-sırada Tiflis, Təbriz, Paris tərəflərə də "Atəşə məni verin" – mesajını yollayırdım.

Belə bir az tərif-təltif də olmasın: "Peyğəmbərçiçəyi"ni yazanda duyğuların hərarətindən qələmlə əllərim yanırmış kimi davranırdım. Hələ unudulmaz Dantenin hikməti də yadıma düşmüşdü: "Həqiqətin alovu onu aparanın əlini tez-tez yandırır". Amma inanmıram ki, əllərimin tez-tez yanmağı həqiqət alovundan olsun. Olsa-olsa qırıq-qırıq, sınıq-sınıq qəlbimdən olardı.

P.S.

Axı mənim nə boyum var ki, o boyda həqiqəti əllərimdə daşıya bilim?!

**İBRAHİMXƏLİL**

## GÜRCÜSTAN İQTİSADİYYATINA XARİCİ İNVESTİSİYA QOYULUŞU 52,9 % AZALIB

Gürcüstanın Milli Statistika İdarəsinin ilkin hesabatına əsasən, 2020-ci ildə Gürcüstan iqtisadiyyatına 616,9 milyon ABŞ dolları birbaşa xarici investisiya qoyulub.

Sənədə əsasən, illik müqayisədə sərmayələrin məbləğində 52,9 % azalma qeydə alınıb.

Ötən il Gürcüstanın ilk üç əsas investoru Böyük Britaniya (307,8 milyon dollar), Niderland (172,1 milyon dollar) və Türkiyə (108,1 milyon dollar) olub.

Hesabat ilində sərmayələrin böyük hissəsi maliyyə, dağ-mədən sənayesi, daşınmaz əmlak, istehsal və tikinti sahələrinə yatırılıb.



## NOVRUZ BAYRAMI İLƏ BAĞLI BAŞ NAZİRƏ MÜRACİƏT ÜNVANLANIB




Gürcüstanda azərbaycanlıların təmsil olunduğu bir neçə təşkilat və ictimai fəal baş nazir İrakli Qaribaşviliyə müraciət ediblər. Təşəbbüs "Aktual Media" təşkilatı və onun nəzdindəki Aktual.ge xəbər portalının rəhbəri İlkin Hüseynova məxsusdur.

Müraciət müəllifləri Novruz bayramı günü Gürcüstanda tətbiq olunan "komendant saatı"nın ləğvini xahiş edirlər.

Sənəddə bildirilib ki, bayramın qeyd olunması, qonaq getmək və tonqal qalamaq axşam saatlarına təsadüf edir. Bu səbəbdən bayramın ənənələrinə uyğun tədbirlərin qanun pozuntusuna yol vermədən keçirilməsi üçün "komendant saatı"nın martın 21-də aradan götürülməsi təklif olunur.

Müraciət hökumət administrasiyasına təqdim edilib.

Qeyd edək ki, ölkədə pandemiya səbəbindən ötən ilin noyabrından saat 21:00-dan saat 05:00-dək ölkə üzrə piyadalar və avtomobillərin hərəkətinə icazə verilmir.

## XULDƏRƏ KƏNDİNDƏ YENİ MƏKTƏB BİNASI TİKİLİR

Marneuli rayonunun Xuldərə kəndində yeni məktəb binası inşa edilir. Xatırladaq ki, Xuldərə ictimai məktəbi illərdir ki, yararsız vəziyyətdədir.

Gürcüstan parlamentinin deputatı Zaur Darğallı ağır şəraitdə fəaliyyət göstərən məktəbə baş çəkib və tikilməkdə olan yeni bina ilə tanış olub.

Onun sözlərinə görə, gələn ildən Xuldərə məktəbliləri təhsillərini yeni və müasir standartlara cavab verən məktəbdə davam etdirə biləcəklər.

Layihəyə əsasən, yeni təhsil müəssisəsində müasir sinif otaqları və laboratoriyalar, akt zalı, idman meydançası, yeməkxana yaradılacaq və zəruri avadanlıqlar quraşdırılacaq.

Qeyd edək ki, Xuldərə məktəbinin əsası 1945-ci ildə qoyulub. 1983-cü ildə təhsil ocağına natamam orta, 2003-cü ildən isə orta ümumtəhsil məktəb statusu verilib. 6 sinif otağından ibarət məktəb bu günə qədər əsaslı təmir-bərpa olunmayıb.



## GÜRCÜSTANDA AZƏRBAYCAN SƏFİRLİYİNİN TƏSİS OLUNMASINDAN 25 İL ÖTÜR

Martın 5-i Azərbaycanın Gürcüstanda səfirliyinin təsis olunmasından 25 il ötür. Diplomatik nümayəndəlik 1996-cı ilin martın 5-də rəsmi qeydiyyata alınıb və həmin ay Tbilisidə fəaliyyətə başlayıb.

1996-cı ilin mart ayı Azərbaycan-Gürcüstan münasibətləri üçün xüsusilə əlamətdar olub. Belə ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyev dövlət başçısı kimi Gürcüstana ilk rəsmi səfərini 25 il öncə 8-10 mart tarixində edib.




Ulu öndərin tarixi hadisə adlandırdığı səfər çərçivəsində iki ölkə arasında Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə və digər önəmli sənədlər imzalanıb. Həmin sənədlər gələcək ikitərəfli əməkdaşlıq üçün hüquqi baza formalaşdırıb.

1996-2004-cü illərdə Azərbaycanın Gürcüstanda səfiri Hacan Hacıyev olub. Azərbaycanın Gürcüstandakı ilk səfiri Məmməd Yusif Cəfərov hesab olunur. O, 1918-ci ilin iyun ayının axırlarından 1919-cu ilin martın ortalarına kimi Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasında diplomatik nümayəndəsi vəzifəsini tutub.

## PARLAMENT SƏDRİNİN MÜAVİNİ AZƏRBAYCAN SƏFİRİ İLƏ GÖRÜŞÜB

Gürcüstan parlamentinin sədr müavini Kaxa Kuçava Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyevlə görüşüb.



Tərəflər iki ölkə arasında mövcud dostluq və tərəfdaşlıq münasibətlərini nəzərdən keçiriblər.

Görüşün əsas mövzusu parlamentlərarası əlaqələrin dərinləşdirilməsi və dostluq qrupları formatında qarşılıqlı səfərlər olub.

K.Kuçava və F.Quliyev həmçinin Cənubi Qafqazdakı hazırkı proseslər, iqtisadi-ticari məsələlər ətrafında da fikir mübadiləsi aparıblar. Qeyd olunub ki, Gürcüstan regionda əsas iqtisadi tərəfdaşı olan Azərbaycanla gələcək illərdə qarşılıqlı ticari-iqtisadi əlaqələrin dərinləşdirilməsində maraqlıdır.

## GÜRCÜSTAN TÜRKİYƏ İLƏ ENERJİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞI MÖHKƏMLƏNDİRİR



Gürcüstanın Türkiyədəki səfirliyinin yaydığı məlumata əsasən, Gürcüstan və Türkiyə arasında energetika sahəsində əməkdaşlıq haqqında sazişə əlavə protokol imzalanıb.

Sənədi "Gürcüstanın elektrik enerjisi sisteminin kommersiya operatoru" (ESCO) adından Gürcüstan səfiri Giorgi Cancğava və Türkiyənin Elektrik Enerjisi Korporasiyasının (EÜAŞ) icraçı direktoru İzzet Alagöz imzalayıblar.

Protokol iki ölkə arasında həyata keçirilən elektik enerjisinin idxalı və ixracı üzrə əməliyyatların asanlaşdırılmasını nəzərdə tutur.

İmzalanma mərasimində iştirak edən Türkiyənin energetika və təbii resurslar nazirinin müavini Abdullah Tancan iki ölkə arasında həm energetika, həm də müxtəlif sahələrdə əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edib.

Görüşdən sonra tərəflər Gürcüstan nümayəndə heyətinin yaxın zamanlarda Ankaraya işgüzar səfər etməsi ilə bağlı razılığa gəliblər.

## HƏR YAXŞILIQ BİR SƏDƏQƏDİR



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Bir gün Rəsulullah (s.ə.s.) "Hər müsəlman sədəqə verməlidir" buyurur. Səhabə "Sədəqə verəcək bir şey tapa bilməyən nə etməlidir?" deyə soruşur. Əfəndimiz "İşləyər, qazanar və sədəqəsini verər" deyir. Bu dəfə iş imkanı tapa bilməyənin nə etməsi lazım olduğu soruşulur. Allah Elçisi "Möhtac və məzluma kömək edər" cavabını verir. Nəhayət buna da imkanı olmayanın vəziyyəti soruşulduğunda Peyğəmbərimiz (s.ə.s.) belə buyurur: "Bələləri yaxşılıq etsin, özünü pislikdən qorusun. Çünki bu da onun üçün bir sədəqədir" (Buxari, Zəkat, 30).

Allah Rəsulu (s.ə.s.) bu sözləriylə səmimiyyətlə, könüldən qopub gələn və könülləri fəth edən hər gözəl işin yaxşılıq, hər yaxşılığın da sədəqə olduğunu xəbər vermişdir bizlərə.

Artıq bir aydan çoxdur ki, mənəvi yenilənmə zamanı olan, üç aylar olaraq da ifadə edilən Rəcəb, Şaban və Ramazan aylarını yaşayırıq. Hətta Rəcəb ayını arxada buraxaraq Şaban ayına qədəm basmışıq. Bu aylar həmçinin yaxşı əməllər işləmək, bol ibadət etmək üçün bizlərə verilən bir fürsətdir. Bu aylarda əxlaqımızı gözəlləşdirməyə çalışmaqla, bir yandan da özümüzə bir alışqanlıq halına gətiririk bu yaxşılıq xüsusiyyətlərini. Bəs nədir bu yaxşılıq?

Yaxşılıq, bəzən yolunu çaşana yol göstərmək, yoldakı zərərli şeyləri aradan qaldırmaqdır. Bəzən yaxşılıq qardaşımızın üzünə təbəssümlə baxmaq, inciklərı barışdırmaqdır. Bəzən isə yaxşılıq qardaşlarımız üçün Rəbbimizə ifadə etdiyimiz ən səmimi yalvarışlarda olmaqdır. Bizlərə düşən yaxşılığın hər növünə talib olmaq və edəcəyimiz yaxşılıqlar vasitəsiylə sədəqələrimizi artırmaqdır. Əslində bunlar hər bir müsəlmanda olması lazım olan xüsusiyyətlərdir. Çünki İslam gözəl əxlaq dinidir. Çünki müsəlmanın öndəri, rəhbəri olan Həzrət Məhəmməd (s.ə.s) bu xüsusiyyətlərə sahib olan bir şəxsiyyət idi. Əgər bizlər də onun yolu ilə getmək, onun izində yerimək istəyiriksə onun kimi biri olmağa çalışmalıyıq.

Qurani-Kərimdə "Kim zərrə qədər yaxşı bir iş görmüşsə onu (əvəzini) görəcək. Kim də zərrə qədər pis bir iş görmüşsə onu (əvəzini) görəcəkdir." (Zəlzələ, 99/7-8) deyə buyrulur. Bunun üçün də hər kəs axirət həyatında bu dünyada nə iş görsə onun qarşılığını alacaq. Allahın rəhmətini və mərhəmətini qazanmaq və Cənnətə girmək istəyənlər də gözəl əxlaqı və yaxşılığı özlərinə bir düstur götürməli və nə ilə qarşılaşmaqlarına baxmayaraq bu yolda yeriməlidirlər.

Müsəlman bu aylarda yaxşılıq toxumlarını əkməyə və yuxarıda da vurğuladığımız kimi, bu xüsusiyyəti özünə adət etməlidir. Çünki Hz. Mövlana "Pislik bir toxumdur eynilə yaxşılıq kimi" deyir. Böyük və ya kiçik fərqi güdmədən əkilən hər bir toxum özündə insanları, cəmiyyətləri və dünyanı dəyişdirəcək qədər güclü nüvələr daşıyır. Yaxşılıqların yaşıllaşmasını istəyiriksə daha nüvə halındaykən pisliklərin qarşısını almaq lazımdır. Edilən pisliyi gizləməyi, örtməyi bu səbəblə Rəbbimiz məsləhət edir. Hikmət əhli bu gerçəyə diqqət çəkmək üçün çox zaman bədəvinin hekayəsinə müraciət edir: Belə ki, səhrada dəvəsiylə yol gedən bədəvi susamış bir qəribə rast gəlir. Özündən su istəyən bu şəxsə yazığı gəlir və insaniyyət adına dəvəsindən enir və ona su verir. Suyu doya-doya içən adama can gəlir və dərhal bədəvini itələyir. Dəvəsinə minərək oradan qaçmağa çalışır. Heyrət və ibrətlə olanları izləyən bədəvi oğrunun arxasından səslənərək belə deyir: "Ey yolçu! Yaxşı, dəvəni al get, amma əsla bu olanları başqasına danışma". Bu istəyə heyrət edən oğru durur və səbəbini soruşur. "Əgər bunu başqalarına izah etsən, bu, hər yerdə duyular və insanlar bir daha səhrada susuz qalmış birini gördüklərində ona əsla kömək etməzlər!" deyir bədəvi. Bu cavab pisliklərin yayılmasının yaxşılığı da ortadan qaldıracağının hikmətli ifadəsi deyilmi?

# MÜƏLLİMLƏR EVİNİN RƏHBƏRİ: KEYFİYYƏTİN İDARƏSİ QRUPU HEÇ KİMİ CƏZALANDIRA BİLMƏZ



“Keyfiyyətin inkişafı və peşəkar dəstək qrupu – Müəllimin daxili qiymətləndirilməsi və peşə inkişafına dəstək məqsədi ilə məktəb direktorlarının sərəncamı ilə ümumtəhsil müəssisələri bazasında yaradılmış qrupdur”. Keyfiyyətin idarəsi qrupu məktəb həyatında baş verən hər şeyi müşahidə edir. Müəllimlər Evinin rəhbəri Berika Şukakidze bildirib: “Biz istəyirik məktəbdə keyfiyyətin idarəsi qrupu yaradılsın və qrup əməkdaşlıq formatında dərslərdə iştirak edəcək. Bu, pedaqoqun inkişafına kömək edəcək. Kənar müşahidə və sənəd-sünəd olmamalıdır. Ola bilsin, müəllimin ümumiyyətlə dərs planı yoxdur, ancaq şagirdi dərslə maraqlandırmağı bacarmalıdır. Əsas olan budur. Mən şagirdin dərsi başa düşüb-düşməməsi ilə maraqlanıram. Bizi nəticə maraqlandırır”.

Qaydaya görə, həmin qrup məktəblərdə tədris ili başlayana qədər yaradılmalı idi. Ancaq heç kim Gürcüstanın təhsil sahəsində nəticəsinin nə olacağını bilmir. Məktəblərdə keyfiyyətin idarəsi qrupları yaradılıb ya yox, onlardan konkret nə tələb olunur; Qrup üzvləri hər hansı ödəniş alacaqlarmı və məktəb direktorları qrup üzvlərini nə dərəcədə obyektiv seçəcəklər? – etaloni.ge bu suallarla Müəllimlər Evinin direktoru Berika Şukakidzeyə müraciət edib.

– Keyfiyyətin idarəsi qrupunun yaradılması məktəbin öz qərarıdır. Məktəb öz ehtiyacına əsasən bu qərarı qəbul etməlidir. Keyfiyyətin idarəsi qrupunun cəzalandırma mexanizmi yoxdur. O, yalnız qiymətləndirir və müəllimlərə heç bir ziyan vura bilməz.

**– Əgər heç bir üstünlüyü yoxdursa və lazımi addımlar atılmayacaqsa o zaman bu qrupu yaratmağa nə ehtiyac var?**

– Polis deyilik ki. Keyfiyyətin idarəsi qrupu istəsə də heç kimi cəzalandıra bilməz. Çünki bu heç yerdə yazılmayıb. Onun yaradılması ideyasının iki məqsədi var: birinci – məktəbin avtorizasiyasına yardım etsin. Bilirsiniz ki, indi məktəblərin avtorizasiyasına başlanılır. Çox sayda anketlər doldurulmalıdır və sonra məktəblərdə tədris, nizam-intizam, maddi-texniki bazada vəziyyət qaydaya salınmalıdır. 1500 şagirdi olan məktəbdə bunların hamısını direktor etməyəcək ki? Keyfiyyətin idarəsi qrupu vasitəçidir, administrasiyaya məktəbi daha yaxşı idarə etməkdə kömək edir.

Müəllimlərə gəldikdə isə, deyim ki, yeni sxemə görə onlar peşə inkişafından keçməlidirlər və keyfiyyətin idarəsi qrupu məhz buna kömək edir. Bundan əlavə, məktəb tədris planını kim yaratmalıdır? Keyfiyyətin idarəsi və əməkdaşlıq qrupu şöbələrdə olan vəziyyət barədə məlumat toplamalıdır və ictimaiyyətin ehtiyaclarına yönəlmiş məktəb tədris planı hazırlamalıdır. Buradan irəli gələrək, keyfiyyətin idarəsi qrupu direktora məktəbi idarə etməkdə, avtorizasiya prosesində kömək edir; müəllimə peşə ehtiyaclarını müəyyən etməkdə, konkret məktəb ictimaiyyətinə yönəlmiş tədris planı tərtib etməkdə kömək edir.

**– Cənab Berika, qrup üzvlərinə ödəniş ediləcəkmi?**

– Hey eşidirik ki, mentor, aparıcı və baş müəllimlər əlavə maaş alırlar, özləri də təkcə dərs deyirlər və məktəbin həyatında iştirak etmirlər. Təsəvvür edin, müəllim 1250 lari maaş alır və 15 dərs keçir! Ancaq onun öhdəliyi məktəbin idarəsində iştirak etmək olmalıdır. Müəllim bir fənn üzrə dərs keçdiyinə görə bu qədər əlavə maaş almamalıdır! O zaman direktor nə etsin, statuslu müəllimin maaşının yarısını alır və bu qədər məsuliyyət?

**– Yəni keyfiyyətin idarəsi qrupunun üzvləri heç bir əlavə ödəniş almayacaqlar. Çünki, hesab edirsiniz ki, müəllimlər onsuz da yüksək maaş alırlar və məsuliyyəti, yaxud işlərini entuziazm əsasında artırmalıdırlar?**

– Xeyr, ödəniş olmayacaq, ancaq gələcəkdə bu baxımdan ola bilsin nəsə dəyişsin. Bu, məktəbin qərarıdır və qrupun özünü nə dərəcədə yaxşı əks etdirməsindən, məktəb üçün nə dərəcədə lazımlı olmasından asılıdır.

**– Cənab Berika, kreditlər barədə də soruşacam. Elə hallar olub ki, müəllim şikayət etdikdən sonra 0-dan 4 kredit alıb. Burada qiymətləndirmə qrupunun obyektivliyi və kompetensiyalı olmağı şübhə altına düşür, mənimlə razısınızmı?**

– Etiraf etməliyik ki, kreditlər və qiymətləndirmə qrupunun fəaliyyəti gözləntiləri doğrultmadı. Həqiqətən də müəllimlərin kreditləri nəyə görə aldıqları aydın deyil və məhz buna görə bu sistemi ləğv etdik.

**– Şikayət edirlər ki, kreditləri Berika Şukakidze düşündü və indi də ləğv edir…**

– Mən heç nə düşünməmişəm və kreditlərlə də heç bir əlaqəm yoxdur. Kreditlər olanda mən heç bu vəzifədə çalışmırdım.

**– Müəllimlər üçün məcburi fəallıqları ki, siz düşünübsünüz. Müəllim kənar müşahidədən keçməzsə və treninqlərdə iştirak etməzsə nə olacaq?**

– Müəllimin statusunu əlindən ala bilmərik – o həmişəlikdir. Çox asandır, baş müəllim 20, aparıcı müəllim 12, mentor müəllim isə 8 saat treninq keçmək öhdəliyi daşıyır.

**– Aydındır, ancaq prinsipial olaraq buna qarşı çıxırsa? Treninqlərdə iştirak etmək istəmirsə?**

– Hazırlaşmaq istəmir nə deməkdir?! İnkluziyada, araşdırmada, fənn tədrisi metodikasında müəllimin hazırlaşmaq istəməməsi təsəvvür edilməzdir… Əgər treninqləri istəmirsə o zaman necə inkişaf etməlidir! Belə olmaz! Sonra da məktəb direktoru məktəbdə belə bir müəllimin olub-olmamasına qərar verir.

**– Təcrübəçilərin imtahana qeydiyyatı artıq elan edilib. Testdən keçə bilməyəcək müəllimlər üçün başqa müəyyən güzəştlər planlaşdırılırmı?**

– Bu sonuncu şansdır. Faktdır ki, sxemdə bu adamlar yoxdur və təbiidir, yalnız bu sonuncu imtahanla kompetensiyalarını artıra bilərlər.

**– Tez-tez qınaq obyektinə çevrilirsiniz… Sakitliyinizi qoruyursunuz, ancaq yəqin ki, müəllimlərin şikayətləri sizi incidir.**

– Düzünü desəm, elan etdiklərimizin hamısı araşdırmaya əsaslanır. Bizim qrup indi də müəllimlərin peşəkar inkişafı proqramı barədə beş araşdırma hazırlayıb. 1863 məktəb direktoru ilə pedaqoqların ehtiyacları barədə sorğu apardıq. Müəllimlərin peşə ehtiyaclarını və inkişaf etmək istəklərini araşdırmağı planlaşdırırıq. Bilirsiniz, nə zaman təəccüblənərdim? Əgər nəyisə öz fikrimə əsasən edərdimsə və onun möhkəm əsası olmazdısa. Köhnə sxemin araşdırmasını apardıq, gördük ki, işləmir və müəllimi sinif otağından nə uzaqlaşdırırdısa hamısını sxemdən çıxardıq.

Sakitliyə gəldikdə isə, deyim ki, dövlət məmurunun yüksək səbr göstərmə öhdəliyi var. Dövlət işində ilk dəfə işləmirəm və bunu yaxşı bilirəm. Çox hallarda sərt sözlərlə lənətləyiblər, bəzisi məni qalstuklu kəpənək adlandırır… Nə edək, insanlardır, əylənirlər… Mənim işim çoxdur. Bəzisi əsəbidir, bəzisinin ailəsində problem var və acıqlarını məndən çıxırlar. Ancaq bu, gündəlik aldığım təşəkkürlərin yanında heç nədir.

**– Deyirlər ki, treninqləri trenerlərin ciblərinə pul qoymaq və bizə əzab vermək üçün düşünüblər.**

– Müəllimlər Evi treninqlərə görə heç bir gəlir almır. Əksinə, biz dövlətdən ayrılmış məbləği xərcləyirik. Gələcəkdə treninqləri yalnız Müəllimlər Evi keçirməyəcək, bunu başqa provayderlər də edəcəklər.

**– Özəl provayderlər treninq keçirəcəklərsə, bu o deməkdir ki, müəllimlər üçün bu treninqlər pullu olacaq?**

– Dövlətin vauçer ayırmağa imkanı olsa və müəllim həmin vauçerlə istədiyi provayderin yanına getsə yaxşı olar. Çalışıram donorlar axtarım ki, dövlət və müəllimlər məbləğ ödəməli olmasın və buna görə də məni lənətləyəcəklər. Lənətləsinlər, fikir vermirəm.

**– Deyirlər, müəllimlər imtahanı bezdirib. Ləğv etməyi düşünmürsünüzmü?**

– Sertifikatlaşdırma imtahanı dünyanın bütün ölkələrində var. Sertifikatlaşdırma müəllimin fənn və metodika istiqamətindəki kompetensiyasını müəyyən etmək üçün vasitədir. Belə ki, imtahanların ləğvini planlaşdırmırıq.

## MİLLİ, MÜƏLLİMLƏR, ÜMUMİ MAQİSTRATURA İMTAHANLARI, TƏLƏBƏLƏR ÜÇÜN QRANT MÜSABİQƏSİNƏ QEYDİYYAT BAŞLAYIB VƏ 31 MART TARİXİNDƏ SONA ÇATACAQ

Vahid milli imtahanlar, tələbələr üçün qrant müsabiqəsi, ümumi maqistratura imtahanı, xüsusi baş müəllim üçün imtahan, həmçinin müəllimlərin fənn imtahanı, fənn və kompetensiyanın təsdiqlənməsi üçün qeydiyyat **martın 1-dən başlayıb və 31-i saat 18:00-a qədər davam edəcək.**

Qeydiyyat yalnız Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin veb-səhifəsində – online.naec.ge-də aparılır. İmtahanda iştirak etmək istəyənlər müvafiq qrafanı seçməli və təlimata əsasən qeydiyyatdan keçməlidirlər.

Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi 2021-ci ilin “Abituriyentlər üçün məlumat kitabçası”nın elektron variantını yayımlayıb.

Məlumat kitabçasında cədvəl verilir. Cədvəldə ali təhsil müəssisələri barədə məlumat, hər imtahan üçün verilən ballar, müəyyən edilmiş kompetensiya hədləri, təhsil haqqı və başqa detallar qeyd edilib.

Kitabçada həmçinin yeniliklər, qeydiyyat təlimatı, tədris proqramları, imtahan prosesi, nəticələrin yayımlanması, apelyasiya prosedurları, ödəmə və dövlət təhsil qrantını əldəetmə qaydaları barədə məlumat verilib.

Abituriyentlərin qeydiyyat prosesi bu il də bir neçə mərhələdə keçiriləcək: qeydiyyatın ilk mərhələsində abituriyent qeydiyyat qrafasına şəxsi məlumatlarını yazmalıdır, imtahan verəcəyi şəhəri və imtahan verəcəyi fənləri seçməlidir. Abituriyentlər fənn dəyişmək, yaxud əlavə etmək, eləcə də imtahan dilinin dəyişdirilməsi prosedurlarını 15 aprel saat 18:00-a kimi edə bilərlər. Təhsil proqramı siyahısında dəyişiklik etmək imkanı apelyasiya nəticələrinin yayımlanmasından bir gün sonraya qədər verilir.

Xatırladaq ki, mərkəz yalnız öz rəsmi veb-səhifəsində – **naec.ge-də** və feysbuk səhifəsində yerləşdirilmiş məlumata görə məsuliyyət daşıyır. Mərkəz bütün abituriyentlərdən xahiş edir ki, yoxlanmamış məlumata inanmasınlar.

---

*Mənbə: etaloni.ge*

*Səhifəni hazırladı: Aynurə ƏLİYEVA*

*AFİQ MUXTAROĞLUNUN AYAQÜSTÜ DÜŞÜNCƏLƏRİ*

# HƏYATIN NİDERLAND VERSİYASI

Bəxtəvərlərin, avropalıları deyirəm, uşaqlarının hər havaya düşən oyuncaqları, böyüklərinin hər havaya uyğun geyim-gecimi var. Bunları val biçimli oyun meydançasında bölük-bölük olub müxtəlif oyunlar oynayan uşaqlara baxaraq fikrimdən keçirirəm. İki zənci uşaq futbol fəndləri yerinə yetirir, yəqin ki, anaları olan qadınsa saçlarının cin düyünü uzaqdan da nəzərə çarpan balaca qızcığazın əlindən tutaraq, onların oyununa tamaşa edir. Meydançanın bir başında beş-altı yeniyetmə oğlan-qız bütün əməlsalahları yerli yerində boksla məşğuldur. Qar yağdımı xizəkləri, kirşələri hazır. Ayaqlarında konkiləri buzda sürüşəcəklər. Düzdür, qazan qapağında oturub sürüşənlər də gözə dəyir. Yağış yağdımı uşaqlar rəgbərəng "botu"larını geyinib gölməçələri şığanacaq, yağışın ləzzətini çıxaracaqlar. Böyüklərin çətiri, yağmurluğu da əllərinin altında hazır.

Qardan söz düşmüşkən, fevralın birinci ongünlüyündə yağan qar özünün bəyazlığı ilə könüllərə sığal çəkdi, uşaqlara bir dünya sevinc bəxş etdi. Bir həftə sürən şaxtalar bu bəyazlığı saxlasa da, özünü yetirən isti hava qarı da, onun bəyazlığını da silib-süpürüb, apardı. Elə bil nə qar yağıbmış, nə də onun gözqamaşdırıcı süd bəyazlığı varmış.

Növbəti həftə istisiylə gəldi dedim ha, həmin həftə boşluğu doldurmaq üçün evdən çıxıram. Virtual dünyadan gerçək dünyaya keçid alıram. Sözarası deyim ki, Niderland insanı evindən çıxanda da, evinə girəndə də təbiətlə üzləşir. Eşikdə də, içəridə də, evinin kandarının hər iki tərəfində o, təbiətin bir parçası olduğunun fərqindədir.

Əvvəl-əvvəl dünəndən unutduğum gerçəkliyə uyğunlaşmaq üçün binanın qarşısında ayaq saxlayıram. Sonra piyada keçidinə yön alıb "Kuridvat"ın, "Jumbo"nun arxasına keçərək, Bovensim küçəsi boyunca uzanan kanala yaxınlaşıram. Kanalda üzən su quşları ilə – ördəklərlə, qaşqaldaqlarla, əzəmətli qu cütlüyü ilə, qağayı dəstəsilə qarşılaşıram. Onları yemləmək üçün gəldiyimi düşünən su quşları kanaldakı işlərini yarımçıq qoyub, sürətlə sahilə çıxırlar. Haradan peyda olduqlarını sezmədiyim, gözünün içinə qədər zülmət qarası qarğalar özlərinə sahilə çıxan su quşlarının arasında yer edirlər. Məni başa düşəcəklərmiş kimi bu kömür qarası qarğalara: "Bunlar yedilər, sizə qalmadı" – deyirəm. Bir dəstə al-əlvan göyərçin də quşların məclisinə qarışır.

Bir az quşlarla söhbət edirəm. Tez-tez bu qanadlı varlıqlarla təmas adama "quş dili" öyrədir. Bu dil sufi-dərvişlərin "quş dili" olmasa da, gerçək quşlarla insanın yaratdığı bir ünsiyyətdir. Demirlərmi Süleyman peyğəmbər bütün quşların dilini bilirmiş. Elə bizim Ovçu Pirim də az aşın duzu deyilmiş, o da Süleyman peyğəmbərdən geri qalmırmış. İnanın buna. Bir dəfə, iki dəfə, ötəndə üç dəfə onlarla təmasa keçdinmi yetər. Onların nə istədiyini biləcəksən. Quşlar da insan ha deyillər səndən at və ya dəvə istəyələr. Uzağı bir ovuc dən, bir-iki tikə əppək. Quşun bundan artıq istəyi də olmaz. Ağzında quş deyirsən. Nə canları-cələfləri var ki, böyük-böyük iddiaları da olsun. Söhbətin yırtıcı quşlardan getmədiyini bilirsiniz.

Ələ öyrəşmiş quşların insanlardan qorxacaq halları yoxdur. Ac qalanda doyuzdurursa, təhlükələrdən qoruyursa insanlardan niyə qorxsunlar ki? Üzülərək deyim, bizim insanımız bu çöl quşlarını görüncə, onları necə qazana basmağı, necə şişə taxmağı, bozartmalıqmı, qızartmalıqmı, kabablıqmı etməyi düşünür. Avropada bu düşüncə çoxdan tarixə qovuşub, keçilmiş mərhələyə dönüb. Şəhərləşmənin sürəti heyvanların yaşayış sahəsini daraltsa da, insanlar onlarla bir yerdə yaşamağa öyrəşmiş, onları həyatlarının bir parçasına çevirmişlər. Elə mənim söhbətləşdiyim bu quşlar kimi. Onlar insanların əlçatanında yuvalayır, nəsilbənəsil insanlarla eyni məkanı bölüşürlər. Allahın altında hamıya – insana da, heyvana da, quşa da, böcəyə də yer var. Yetər ki, bir yerdə yaşamağa niyyətin olsun. Üstəgəl də, heyvanlar üçün nə lazımdır? Qarnını doyurmaq üçün yem, başını daldalamaq üçün yuva. Heç bir quşun iki-üç yuva qurduğunu, bir dovşanın maşın istədiyini, bir kəpənəyin qızıl boyunbağı taxdığını, bir meymunun botoks etdirdiyini görmüsünüzmü? İnsan ha deyil, gözüylə gördüyündən kirə istəyə, hər gözünə dəyənə mənimdir və ya mənim olsun deyə.

Yazının lirik bir sonluqla bitməsini istədiyimdən aşağıdakı kiçik abzaslar belə alındı. Yoxsa başqa bir umacağım yoxdur, ağlınıza başqa zad gəlməsin.

Kanalın üstündən keçən piyada körpüsündə xeyli dayanmalı oluram. Suların mavisində əks olunan göyüzünün saman



sarısı günəşinə, alatala buludlarının ağlığına, uca ağacların güzgülənirmiş kimi kanalda görünən hərəkətli şəkillərinə baxıram.

Özümü transa, ekstaza getmiş, öz sufiyana sözümüzlə desəm, hallanmış kimi hiss edirəm.

...Göyün yerlə qovuşduğu bir məkanda olduğumu fikrimdən keçirib, itirdiyi oyuncağını tapmış uşaqdan betər oluram. Hərdən uşaq ağıllı olmağın nəyi pisdir ki?..

Afiq MUXTAROĞLU
Niderland

# BÖYÜK QÜVVƏNİN ÇƏKİSİ



Şərqdə qadın hüquqsuzluğundan çox yazılıb. Qadın haqqı tapdanan, təhqir olunan, sözü tutulmayan, asılı, yazıq, necə deyərlər, "məğmun varlıq" kimi təsvir olunub. Əslində tariximizə ədəbiyyatdan nəzər salanda qadınlarımızı elə də hüquqsuz görmürəm. Əlbəttə, söhbət Şərqdən gedirsə, hələ İslam tarixində Peyğəmbərimizin xanımı Xədicə nəinki İslamı ilk qəbul edənlərdən olub, hətta öz təbliğatı, ictimailiyi ilə zamanına görə tanınıb. Koroğlu Nigarıyla, Qaçaq Nəbi Həcəriylə azmı hünər göstərib. Daha yaxın tarixə nəzər salsaq Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Mikayıl Müşviq, Cəlil Məmmədquluzadə və digər tanınmışların həyatında qadın fədakarlığı önə keçir, bəlkə də tamamlayır.

*Şeyx Şamildən soruşurlar:*

*- Necə oldu ki, sən şeyx oldun?*

*Deyir:*

*- Məni arvadım şeyx eylədi.*

*Əcnəbi sorğusunun təəccübü qarşısında özünəməxsus izahını verir:*

*- Əvvəl mən otağa girəndə arvadım ayağa qalxardı, sonra uşaqları da elə öyrətdi, ailədə hamını ailənin böyüyü və itaət olunanı kimi məni təbliğ etdi. Ailədən başlayan bu hörmət, itaət cəmiyyətə keçdi. Beləliklə, mən şeyx oldum.*

Bəzən qadını sıfır, kişini natural ədəd kimi də göstərənlər olur. Qadın kişinin arxasına keçəndə kişi böyüyür (ucalır), önünə keçəndə kişi kiçilir (əskilir).

Bəli, qadın böyük qüvvədir! Hətta deyirlər, hər uğurlu kişinin həyatında mütləq ağıllı bir qadın var. Bu qadına milliliyimiz nöqteyi-nəzərdən baxaq. Bu həmin qadındır ki, ailəsinin həm xanımı, həm qulluqçusudur! Bu həmin qadındır ki, əzab çəksə də, təhqir olunsa da, əzilsə də dözür. Bu həmin qadındır ki, hisslərini, arzularını, xəyallarını bükübelə bir boxçaya qoyur ki, bəzən onunla qəbrə gedir. Bu həmin qadındır ki, özünü övlada fəda edir, onun anasız qalmaması üçün hər şeyə dözür, heç vaxt ayrılmağı ağlının kənarından belə keçirmir. Bəli, bu həm də o qadındır ki, ailəsinə əbədi sadiq qalır. "Bir qara paltarlı qadın" kimi bəzən gənc yaşında belə əbədi dul qadın olaraq həyatını başa vurur. Balaları üçün hər çətinliyə qatlanır, onları böyüdür, toy, nişan edir...

Ərin ən pis vərdişləri də olsa məhz mənim millətimin qadını dözür, səbrlə – bircə balalarım böyüsün – deyə dözür, hətta o dözülməz ərə də dözür, balalarının xətrinə. Bunları yalnız qadın edir. Atalar da görərək demişdir: **yuvanı dişi quş yapar.**

Bu, TÜRK QADINIDIR!

Mən artıq çox da böyük olmayan həyat təcrübəmdən özüm üçün "eşitdiklərim, oxuduqlarım, gördüklərim"dən belə qərara gəldim, nəinki uğurlu kişini idarə edən qadın var, sən demə qadın kişinin "şəxsiyyət vəsiqəsi" imiş. Xarakterinin belə formalaşmasında qadın təbliği rol oynayırmış. Kişilər qadın təsiri ilə şəxsiyyətində belə dəyişiklik edə bilərmiş (Sultanları belə dəyişən, istiqamətləndirən qadınlar olmadımı?).

Tanınmış xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev "Qızlar məktəbi" açmaq istəyəndə çox çətinliklərlə qarşılaşmışdır. O demişdir ki, *əgər siz oğlunuzu oxutsaz bir nəfəri işıqlığa çıxararsınız, amma qız oxuyanda bir ailə işıqlanacaq.*

Bəli, qadın elə bir varlıqdır ki, o özünü fəda etməklə ailəsini qoruyur. Bəlkə düz bilmirəm, amma məncə "namus" sözünün başqa dillərdə qarşılığı yoxdur. Bax, elə namuslu qadın adı da məhz Türk-Azərbaycan qadınına yaraşır.

Mən bir qadın tanıyıram, doğulandan ölənəcən bir örnəkdən libas geydi. Busan dedilər, belə olmalısan dedilər, belə olmuşuq dedilər. Belə oldu. Belə öyrətdi. Bu qadını tək Borçalıda deyil, harda türk adı çəkildi orda gördüm. Bu qadın dünyaya Nizami, Xətai, İbn Sina, Sultan Mehmet, Şeyx Şamil, Üzeyir və s. gətirdi. O, həm də bizim anamızdır! O, həm də bizik. Onu həm də biz dünyaya gətirmişik. Sən busan, millətimin qadını. Dözmüşüm, dözənim, dözəyənim!

Öyrəndiklərimizi qızlarımıza öyrədək. Öyrədək ki, silsilə pozulmasın. Qarşında baş əyirəm, millətimin nənəsi, anası, bacısı, qızı. Öz çətinliklərinlə gözəlsən, maraqlısan, qayğıkeşsən, fədakarsan. Bəlkə də doğmasan.

Var ol həmişə! Dünyanın qeyd etdiyi azad qadın bayramını biz də öz "məssəvimizlə" qeyd edək. Bu axar-baxarlı dünyamızın təlatümlü zamanında hamımızı təbrik edirəm, ana adımıza. Qoy dünyamız var olsun, qara buludlar yox olsun. Analar adına mən deyirəm, xoşdur ailəsinin qadını olmaq, xoşdur qayğı çəkmək! Həyat da bu çətinlikləri ilə gözəldir. Bayramımız mübarək!

*Esmira ƏLƏKBƏRLİ*
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## GİVİŞVİLİ VƏ SKANDARNOVA

(əvvəli ötən sayda)

Mahnı üçün yazılmış şeirlərə, bu şəhər poeziyasına Tiflisin sadə camaatı çox güclü meyl edirdi. Əgər nağılvari hekayələr onların fantaziyasını "ənləndirirdisə", mahnı üçün yazılmış şeirlər qulağına dəyən kimi əzbərləyir, zümzümə edir və yayırdı.

Givişvili, Skandarnova, Hazira; Sonra: Ganciskareli, Yetim Gürcü, Beçara və sair. Bunlar öz müqabillərində Besikinin, Sayat-Novanın, A.Çavçavadzenin, Alvan-oğlanın, Budaq-oğlanın, Kiçiknovanın, Perşangişvilinin, Şamço-Melkonun və başqalarının müxəmməslərı ilə böyümüşlər. Bu ozanlar, bu fars güllərinin ilk bağbanları sadə camaatın şüur məclisində daim tabaqları olublar.

Böyük istedada malik insan, gec və ya tez hamı üçün məlum olur. İstedad çox vaxtlar yerin dərinliyində gizlənən qiymətli qızıl külçəsidir. Bunu axtarmaq, tapmaq, üzərə çıxarmaq, aşkarlamaq, təqdir etmək lazımdır.

Tarix öz dövrü tərəfindən inkar olunan yazıçının, müasirlərinin unutduğunun, bir neçə nəsildən sonra xoşbəxt tədqiqatçının qələmi ilə aşkar olunduğunun, xalqın fəxri olduğunun bir neçə nümunəsini xatırlayır.

Mən belə "xoşbəxt" deyiləm və nə də "fəxri" fərmanlar paylayıram.

Mən yalnız yaradıcılığı da Tiflisin sadə camaatının bir neçə nəslini yetişdirdiyi insanların unutqanlıq kəfənini başdan rədd etmək istəyirəm.

Bir dəfə Floberin *(Məşhur fransız yazıçısı Qustav Flober - M.M.)* beyninə düşdü ki, ziyafət verə və yalnız tənqid tərəfindən məhəl qoyulmayan yazıçıları dəvət edə.

Mənim diqqətim də bu halda hansısa ayrı-ayrı şəxslər üzərində uzun müddət dayanmayıb. Mən bu yazıçıları, biçilən taxılı dərz kimi, birgə götürüb incəsənət xırmanına gətirdim və oxucularla onu döyəsi oldum.

Bizim əsrin gürcü poeziyası aşıq poeziyasına geniş şəkildə calandı və onun köklü-köməcli axınına qovuşdu. Sonra isə həyat tərzinin dəyişməsi Tiflisin xalq poeziyasının formalarını da dəyişdi və o artıq "kitab" zəmininə keçdi. İstedadlı qaraçoxeli qələm əhli, pambıq ipi ilə cod şəkildə deyil, "sıx şəkildə, qüsursuz tikilənlər" ortaya çıxdı ki, bunlar da demokratik ədəbiyyatın bütöv dövrünü yaratdı.

Ondoqquzuncu əsrin ikinci yarısında şəhərin aşağı təbəqəsində Skandarnova, Givişvili və Hazira kimi görkəmli simalar ortaya çıxdı. Onlar, şübhəsiz, kiçik miqyasda Besiki və Sayat-Novanın və onun ədəbi janrının davamçıları idilər. Əgər köhnə şeirlərin başlıqları "Şarişuri şüştər muxalif avazında" və ya "Bir gün gedək, ax, bilmənəmin avazında" idisə, yenilər öz mahnılarına belə başlıqlar verirdilər: "Ax, inç anim, vuns anim"in avazında, "Boje moy"un avazında və sair.

Hazira barədə aşağıda danışacağam. Hazırda sizin diqqətinizi iki nəfər şeirçi üzərində dayandırmaq istəyirəm: Demək olar ki, eyni zamanda xalq ədəbiyyatının naməlum yaylağında qanad çalan **David Givişvili** və **Giorgi Skandarnova** üzərində.

İlya və Akaki yuxarı təbəqə arasında olduğu kimi bu iki nəğməkar şəhərin aşağı təbəqə əhalisi arasında populyarlığa malik idi. Lakin bu iki şair elə vəfat etdi ki, onlar barədə səmir belə çıxmadı.

Skandarnovanın vəfatını heç kim bilmədi. Tələsik tabuta qoydular və acınacaqlı şəkildə dəfn etdilər. Givişvilinin tabutunu dörd nəfər muzdlu əsgər Petre-Pavle qəbiristanlığında dəfn etdi. Nə ağlamaq, nə söz, yalnız Givişvilinin oniki yaşlı oğlu bu dörd sətri istəmədən söylədi:

***"Niyə, məndən uzaqlaşdın, mənim atam,***
***Kiçik vaxtlarımda mənə niyə qıydın?***
***Zülm altında böyüdüm,***
***Heç yerdə mənzilim yox idi"*** *(Tiflis şəhər müdriyyəti keçmiş Soboro küçəsini David Givişvili küçəsi adlandırmışdır (Bax: "Tiflisin küçələri", 1926-cı il, səh. 67), Skandarnova küçəsi isə hələ yenə də bir Allaha qalıb).*

Onlardan hər birinin demək olar ki, bütöv yarım əsr fəaliyyət göstərməsinə və onlardan hər birinin 30-a qədər müxtəlif xarakterli şeirlər toplusunun nəşr etdirməsinə baxmayaraq nə biri barədə, nə də o biri barədə yazılı avtobioqrafiya qalıb.

Onları sadalamaq da maraqlıdır.

Belə bir fikir mövcuddur – Bütün dünya ədəbiyyatında əsərlərə tamamilə uyğun gələn yalnız bir neçə başlıq var. Beləcə başlıq seçmək çətin olub! Giorgi Skandarnova, eləcə də onun başqa müasiri olan yazıçılar üçün bu çətinlik mövcud deyildir. Başlıq burda tamamilə başqa təyinata xidmət edir. Başlıq həkk olunmuş haşiyə kimi gözə çarpmalı, öz daxili qəribəliyi və israrlığı ilə israrlı oxucuda hər şeyi bilmək hissini oyatmalıdır.

Biz bu başlıqları bütövlükdə gətiririk ki, oxucuda onların üsulu və quruluşu barədə tam təəssürat oyatsın.

**Giorgi Skandarnova:**

Xalq məclisi və müxtəlif yeni mahnılar;

Qarınqulu kişinin həyatı, Ortacalada əyyaşların kef çəkmələri və müxtəlif yeni şeirlər;



Çəyirtgələrin və insançəyirtgələrin durumu;

Cavab olaraq telavlı Mtsğeradzeyə həsr edirəm;

Aşiqanəlik güzgüsü, müxtəlif yeni şeirlər və mahnılar;

Yeni zurnaçı, xalq şeirləri, mahnılar və bizim xalqın həyatından satiralar;

Caqi-cuqi, vaxe-vaxe və yeni-yeni mahnılar, bunun plastinkasına qramafonda baxın;

Yeni kiçik xalq çəngisi, səhnələr, satiralar, kupletlər və əmioğlu barədə yeni uydurulmuş şeir;

Üç çörəyin əhvalatı, xalq nağılı-əfsanəsi və bəzi keşişlərin acgözlüyü barədə iki müxtəlif xalq rəvayəti;

Üçlük müttəfiqlərinin və Avstriya-Macarıstan, Serbiya-Çernoqoriya və eləcə də Osmanlının dəhşətli müharibə olayları;

Zarafatçıl zurnaçı, telavlı keçi və siğnağlı eşşək barədə maraqlı şeirlər və eləcə də seçilmiş aşiqanə şeirlər;

Şənlik süfrəsinin nəğməkarı;

Bədbəxt şəhər, çərçilərin sərgüzəştləri və onların durumu;

Birlik bayrağı, yeni hökumət və yaxud zəhmətkeş xalqın ağdqoması *(Pasxa bayramı - M.M.);*

Gürcü klubunun loto əhvalatı *(Bu kitabın üz qabığında qadın kimi başlarını örtmüş kişilər çəkilibdir ki, bunlar da qadınlarla masa arxasında oturub loto oynayırlar. Göründüyü kimi, bu loto oyunu köhnə vaxtlar da bizim yazıçıları həyacanlandırırmış. "Siskari" yazırdı: "Eh, bizim ölkə, bəs bizim övladlarımız səni sevirdi və həmişə onların rifahı qayğısına qalırdın? Oh, bizim analar, bizim köhnə anaların çırağı, özlərindən çox ərlərini sevən sizlər, di, indi çevrilib öz övladlarınıza nəzər yetirin"... və sair. (Tavxelidzenin "Lotonun ailəyə təsiri" (A.Purtseladzenin təxəllüsü), "Siskari", 1868-ci il, noyabr, səh. 106);*

Şənlik süfrəsinin nəğməkarı və yaxud Ortacalanın tərifi-gül dəstəsi, maraqlı oxunası, yeni şeirlər, satiralar, köhnə və yeni ailə barəsində bədahətən deyilmiş kupletlər (ikinci nəşr);

Dardanelin açılışı və sərbəst şəkildə müttəfiqlərin planlarının hər bir tərəfə gediş-gəlişi;

Nəğməkar qadın, müxtəlif aşiqanə şeirlər, mahnılar, satiralar və eləcə də tapmacalar;

Alaverdi-Yaxşıoldu, süfrədə oxunası mahnı və başqa şənlik şeirləri, rus motivi deyilən Суббота və В саду розу посадила;

Ortacalanın kef məclisi, Dnqr Solomonun növbə çörəyi *(qonaqlığı - M.M.),* Tiflisdə 1870-ci ildə həqiqi baş verən hadisə;

Aşiqanə çəngi;

Trapizundun işğalı və Bağdad üzərinə hücum;

Kinto Sakulanın şikəstəsi və bayatıları;

Mənim çalğı alətim, yeni nəsil xalq şeirləri və satiralar;

Məclis zarafatı, gülməli və məzəli şeirlər, mahnılar və beytlər və eləcə də Telavi mahnısı özünün darskaluxi ilə *(dəm-dəstgahı ilə - M.M.);*

Nadir ailə elmi yuxu yozması, müdrik Süleymanın və Efrem Verdinin irəlicədən söyləmələri ilə (Tərtib rəssam K.Qriqoryansındır, G.İ.İsgandarnovanın redaktorluğu ilə);

Hamilələrin və doğanların kassası və yaxud xeyirxahlıq şantajı və təəccüb doğuran fırıldaq (İkinci nəşrə əlavə olunur: Ter-Xibolozinin kassasının vahiməli yuxuların yozumu və onun ilk növbədə Telavidə təsis olunması və cənnətdən iblis tərəfindən Ketevan Rutiaşviliyə təcili məktub);

Xoca Molla Nəsrəddinin gülməli lətifələri;

Ah, gözlər! Gözlər!

Şənlik sazəndələri və yaxud istirahət vaxtlarının əyləndiricisi, köhnə və yeni yazıçıların müxtəlif mahnılar toplusu *(Bu sonuncu kitab qədim müxəmməslərin antologiyasını təşkil edir, 1870-ci, 1872-ci və 1895-ci ildə dörd dəfə nəşr olunub).*

**David Givişvili:**

Ozan, mahnılar, gəlin-qayınana durumu, gül və bülbül, qadınların modnası və başqa şeirlər (beş dəfə nəşr olunub);

Bağ-bağat (Toy barədə təbrik şeiri);

Tərif;

Atanın əli ilə satılan oğul və yaxud qəlboxuyan gənc;

Milyonçu Mirzaxanın yuxusu və onun vəsiyyəti, erməni dilindən çevrilmişdir;

Mirzaxanın şikayəti və digər oxu şeirləri;

Kosanın öküzü və yaxud sənə dəydi ya yox. Ay arvad, sevindir məni. Qadının fəndi;

Atı atın yanına bağlayanda həmrəng olmasalar da həmxasiyyat olurlar. Gəlin qayınananın savaşı, fahişəxana, monax qadınların lal xidmətçisi, oxunası və mahnı üçün şeirlər, atalar sözləri və tapmacalar;

Qraf Mixail Tariyeloviç Lorismelikovun tərifi;

Mərhum Aleksandr İvanoviç Mantaşevin tərifi;

Nə gündəyik?

Hökmdarın oğlu şir yanında necə böyüdü və yaxud şirin böyütdüyü;

Bizim Tiflis şəhərimiz və başqa şeirlər;

Xalq nağılları;

Yeni saldatlar barədə-əsgərlər barədə, şeir və mahnı;

Sənin xətrinə qızardılmış toyuq yeyərəm *(Bu kitaba növbəti əfsanə əsas oldu: Bir kişi özünü asmaq qərarına gəlibmiş və onun dostu dustağın əzab-əziyyətlərini yüngülləşdirmək üçün toyuq qızardıb, ona zəhər qataraq həbsxanada məhbusa son nahar olaraq aparıb. Məhbus ona deyib, əgər mənim xətrim varsa, son loxmanı birgə qıraq və toyuğun yarısını ona təklif edib. Toyuğu aparan onun xətrini qırmayıb, yeyiblər və iki səmimi dost birgə ölüb (Bax: "Aya Sofiyanın durumu", Avtandil Quliyevin nağıl kitabı, 1913-cü il, II hissə, səh. 18).*

Şəhərin yeni boynası - sallaqxananın yeni qəssabxanası, şeytanın və pulun əsiri və başqa şeirlər;

Səntur *(Şərqin simli, toxmaqla çalınan musiqi aləti - M.M.),* mahnı və oxu üçün şeirlər;

Üç julik - hoqqabaz, yalanın şübhəsi ilə ər arvadını boğur, harda nazikdir, ordan qırılır, təmsillər və digər tapmacalar;

Bazar (cəmi beş dəfə nəşr olub);

Tutuquşu (bu kitabda "Şvidveziriani" təmsilləri nəzmə çəkilib);

Yeni modni qadın;

Qaçaq Koroğlu (bu poema dörd kitab olaraq nəşr edilib);

Çar İrakli ilə xanın güləşi;

Gürcüstan süfrəsi - Tatar şikəstələri, tatar məğzi ilə tərcümə;

Pajar və taksiya *(nırx - M.M.);*

Dul bakirədən nəyi ilə üstündür;

Siğnağidə yaşayan Stepane İvanoviç Ğonievin həyatı və ölümü;

Döyüş meydanında həlak olan Z.Çoloğaşvili barədə şeir;

Savaş mahnısı və döyüş meydanında həlak olan Datiko Bebutov barədə şeir;

Mərhum Melko Bağdasarov barədə şeir;

Bıçaqla öldürülmüş Poğos Matuzov barədə şeir;

İoseb Stepanoviç Almasovun vəfatı barədə şeir;

Yakob Abraqune barədə şeir.

Hansı taleyin istehzasıdır!

D.Givişvili, elə ya belə, dünyasını dəyişən ünlü insanlar barədə şeirlər yazırdı, kitab şəklində də çıxırdı (Bu, şəhər camaatının o dövrkü matəm bəyanatı idi), özü isə elə dünyasını dəyişdi ki, bu əməkdar xalq şairi heç kimin yadına düşmədi, nahaqdan da Givişvili irəlicədən söyləməmişdir:

**"Məzar da mənə lazım gəlsə, bu duran ölüyə,**
**Heç kim axtarmayacaq mənim üçün qəbir".**

*(ardı gələn sayda)*

*Gürcü dilindən tərcümə edən:* ***Mirzə MƏMMƏDOĞLU***

# YAŞILLAŞDIR Kİ, GÖZƏLLƏŞSİN



İnsanoğlu gəldiyi bu həyatda yaşayır, yeyir-içir, oxuyur, təhsil alır, ailə qurur, artır, işləyir, gəlir əldə edir. Bunların hamısı bir marafon kimi ardıcıllıqla davam edir. Bəzən bu ardıcıllıq arada dəyişsə də, çox vaxt bu şəkildə davam edir. Bu sadaladıqlarımın hamısı gözlə görülən, əl ilə tutulan şeylərdi. Lakin bunlardan başqa həyatda gözlə görülməyən, əl ilə tutulmayan daha vacib şeylər vardır. Bunlar da biz insanların duyğularıdır.

Hər birimiz gələcək nəsli yetişdiririk. O nəsli ki, biz dünyanı onlara əmanət buraxacağıq. Elmi, təhsili biz valideynlər olsaq da, olmasaq da ala biləcəklər. Demirəm elm öyrətməyək (elm deyərkən dini elmi, fəlsəfi mövzuları nəzərdə tuturam. Bunların hamısı elmə daxildir). Ancaq biz olmasaq da yuxarıda dediyim daha vacib olan duyğunu övladlarımız çətin inkişaf etdirə bilsinlər. Ona görə ki, duyğu inkişafı heç bir məktəbdə, heç bir dərslikdə keçirilmir.

Biz bir-biri ilə mübahisə etməyən, bir-biri üçün fədakarlıq edən, bir-birinin qayğısına qalan, eqoizmdən kənar, pis iş gördüyündə vicdanı sızlayan, varlıqlara qarşı mərhəmətli nəsil istəyiriksə, bu duyğuları bizlər inkişaf etdirməliyik ki, bəhrəsini də görə bilək.

Sadaladığım duyğusuzluqlarla qarşılaşdığımızda biz indiki nəsli qınayırıq, ittiham edirik, amma heç bunun səbəbini özümüzdə görmürük. Məsələn, kiçik uşağa əlindəkini gizlə, filankəs görsə istəyəcək, deməyimizlə, qarşısındakını düşünəcəyinə bir az da özünü düşün kimi sözlərimizlə yetişdirdiyimiz nəslin şüuraltına bilərək və ya bilməyərək mənfi duyğu və düşüncələr yerləşdirərək qınadığımız nəsli yetişdiririk.

Əlbəttə ki, bizim nəslə elm, təhsil də lazımdır. Ancaq bunlardan əvvəl insani duyğuları bizlər aşılamalıyıq ki, sabah qınadığımız nəsillə ziddiyyət təşkil etməyək. Bəzən elə an olur ki, deyirik yetər ki qarşımızdakı insan kimi insan olsun. Bax, o an diqqət etməliyik ki, biz görmək istədiyimiz insanı yetişdirmədə nələr etmişik?

Cəmiyyətə faydalı bir fərd, insani duyğulara sahib bir insan yetişdirə bilmişikmi?

Həyat, "nə əkərsən, onu da biçərsən" atalar sözünün canlı yaşandığı bir səhnədir. Gərək bizlər əkdiyimiz toxumun sağlam olduğuna, çürüyü olmadığına diqqət edək, toxuma qulluq edək, suvaraq ki, məhsul yığımında da məhsulumuz istədiyimiz keyfiyyətdə olsun.

Abad olmaq istəyiriksə mən deməzdən əvvəl sən deməyi bacarmalıyıq, hər kəs övladını bu şüurla yetişdirərsə və yaşayarsa, inanın ki, bir-birini sevən, qayğısına qalan qayğıkeş bir nəsil yetişmiş olarıq və belə bir nəsil də abad olar. Biz əvvəlcə öz daxilimizdəki insani duyğuların saralıb-solmasına izin verməməli, əksinə onu yaşıllaşdırmalıyıq ki, yetişdirdiyimiz nəsil də bizdə bu yaşıllığı görərək valeh olsun və onlarda da bu duyğular öz əksini tapsın.

**Lamiyə Hacıyeva (Eminova)**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şurasının sədri*

# POLİETİLEN TORBALAR

Yəqin ki, hər kəs bugünə kimi ən azı bir dəfə mağazaya və ya alış-verişə gedərkən alınan əşyaları daşımaq üçün nəzərdə tutulan sellofan torbalardan istifadə etmişdir. Digər bir adıyla "polietilen" adlanan bu sellofanlar elə də güclü ağırlığa davamlı olmamalarına baxmayaraq günümüzdə nəinki təkcə mağazalarda, həmçinin də məişət əşyalarından geyimimizə qədər bir çox məhsulların hazırlanmasında, həssas əşyaların daşınması zamanı onların zədələnmədən qorunması və bu kimi məqsədlərlə istifadə olunur.

Təəsüflər olsun ki, bu cür torbaların böyük bir hissəsi bir neçə dəfə istifadədən sonra kor-koranə atılır və başda ətraf mühit olmaqla kirlilik, meşə və dəniz canlılarının tələfatı kimi bir çox qlobal problemlərin yaranmasına səbəb olur. Polietilen torbalar kütləvi və ucuz istehsal olunduğundan, hazırda ümumi istifadəyə verilən bu sellofanların sayının trilyonlarla olduğu güman edilir.

Polietilen tullantılarının böyük miqdarı dənizlərə və okeanlara atıldığından dəniz canlılarının və onların təbii ekosisteminin məhv olma təhlükəsi yaratmışdır. Bu tullantıları qida kimi zənn edən bir çox heyvan və quş növü də polietilenin qurbanlarına çevrilmişdirlər. Okeanlara üz tutan balıqçı gəmilərinin nəzarətçiləri dəniz və okeanlara atılan bu cür tullantılar suda nəhəng yığın əmələ gətirdiyini və bunun bəzən o qədər böyük miqdarda olduğunu qeyd edirlər ki, okeanda yaranan bu tullantı yığını "Yeddinci Qitə" deyə adlanmağa başlanıldı. Planetin su təbəqəsində yaranan bu cür yığınların ümumi kütləsinin 7 milyon, tutduğu ərazinin isə 3,4 milyon kv. km olduğu güman edilir. Bu, ərazi baxımından Avropanın 3-də biri deməkdir.

Düzdür, hər il bu tullantıların müəyyən dərəcədə təmizlənməsi və yenidən emalı üçün ölkələr və qlobal səviyyədə bir çox tədbirlər görülür. Ancaq yenə də buna baxmayaraq hər il bu tullantıların sayı qat-qat artmaqda davam edir. Hazırda istifadəyə verilən plastik məhsulların ən azı 30 %-i sadəcə polietilen torbaların payına düşür. Ekspertlərin fikrincə, belə davam edəcəyi təqdirdə 2050-ci ilə qədər dəniz, okean və digər su hövzələrinə atılan polietilen tullantıların ümumi çəkisinin 150 milyon tona yaxın olacağı və bunun da ən böyük hissəsini yenə də polietilen sellofan torbaların təşkil edəcəyi güman edilir.



Polietilen torbalar kənd təsərrüfatı üçün, xüsusilə də qida təhlükəsizliyi üçün əsas təhdidlərdən biri hesab edilir. Belə ki, çürümə prosesi zəif gedən bu cür torbalar əkin və ya təsərrüfat ərazisinə düşdükdə illərlə torpağın məhsuldarlıq səviyyəsinə ciddi təsir göstərir. Bununla birlikdə həmin torpaqda yetişən bitkilərin kimyəvi tərkibində də tədricən dəyişikliklərə səbəb olur.

Ötən ildən etibarən ölkəmiz də daxil olmaqla bir çox dünya ölkələri polietilen torbaların istehsalı və istifadəsi ilə bağlı müəyyən qərarlar qəbul etdilər. Bunlar arasında bu cür torbaların qiymətinin artırılması, sellofanların kağız və ya biotorbalarla əvəzlənməsi kimi qərarlar yer alır. Bu sadalananlar elə də sərt qərarlar olmasa da, ümid edək ki, onlar sayəsində yaxın gələcəkdə müstəb dəyişikliklər əldə edəcəyik.

***Səlahəddin PİRİYEV***
*Tbilisi Dövlət Universitetinin İqtisadiyyat və Biznes fakültəsinin tələbəsi*

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 15 MART 2021-Cİ İL №005 (128)

# BİRİNCİ SİNİFLƏRİN QEYDİYYATI BAŞLAYIB



Birinci siniflərin qeydiyyatı 15 mart tarixindən başlayıb. Vaxt və mərhələlər barədə Təhsil, elm, mədəniyyət və idman nazirinin birinci müavini Ekaterine Dqebuadze nazirlikdə keçirilən brifinqdə danışıb.

15 sentyabra qədər 6 yaşı tamam olan uşaqlar 2021-2022-ci tədris ili üçün qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatın birinci mərhələsində – 2021-ci ilin 15 mart tarixindən 2021-ci ilin 26 mart tarixinə qədər – məktəblərdə xüsusi təhsilə ehtiyacı olan uşaqlar qeydiyyatdan keçəcəklər.

**I mərhələdə** qeydiyyatdan keçmiş uşaqların valideynləri istədikləri məktəbə ərizə ilə müraciət edə bilərlər. Məktəb rəhbərliyi uşağı Təhsilin İdarəsi üzrə Məlumat Sistemində (EMIS) qeydiyyatdan keçirəcək. Uşağın xüsusi təhsilə ehtiyacı olduğunu təsdiq etmək məqsədi ilə valideyn məktəbdə müvafiq müraciət forması doldurur və bundan sonra multidissiplin komandası tərəfindən uşaq qiymətləndirilir və onun xüsusi təhsilə ehtiyacı olub-olmaması müəyyən edilir. Xüsusi təhsilə ehtiyacı olduğu təsdiq olunarsa, məktəb müvafiq sənəd əsasında şagirdin qəbul edilməsini təmin edir. Qeydiyyatdan keçmiş uşağın sənədi 2021-ci ilin 29 mart tarixindən 24 aprel tarixinə qədər təqdim olunmalıdır.

**Xüsusi təhsilə ehtiyacı olan şagirdlər:**

*a) Fiziki məhdudiyyəti olan;*
*b) İntellektual inkişafın pozulması;*
*c) Tədris qabiliyyətinin pozulması;*
*ç) Sensor inkişafın pozulması (eşitmə və ya görmə);*
*d) Nitq qabiliyyətinin pozulması;*
*e) Davranış və emosional pozuntu;*
*ə) Uzun müddət xəstəxanada qalmaq ehtiyacı;*
*f) Təhsildə sosial faktorlardan yaranmış çətinliklər və buna görə də milli tədris planının tələblərini yerinə yetirə bilməyən;*
*g) Autizm spektri olan;*

Xüsusi təhsilə ehtiyacı təsdiqlənməyən uşaqların növbəti mərhələlərdə qeydiyyatdan keçirilməsi mümkün olacaq.

**II mərhələdə** 27 apreldən 11 maya qədər qeydiyyatdan keçmək mümkün olacaq və məktəbdə qeydiyyatdan keçəcək uşaqlar bunlardır:

a) Eyni məktəbdə təhsil alan bacı və qardaş;
b) Valideyni/qəyyumu həmin məktəbin əməkdaşı olanlar;
c) Bir ailədən eyni zamanda birinci sinfə daxil olan iki və daha çox olan uşaqlar.

Bu mərhələdə valideyn/qanuni nümayəndə tərəfindən uşağın qəbulu üçün vacib sənədlərin təqdim olunması əsasında ictimai məktəblərdə qeydiyyat həyata keçirilir. Qeydiyyatı ictimai məktəb təmin edir.

**III mərhələ** – ümumi qeydiyyat – mayın 13-dən başlayacaq və iyunun 5-nə qədər davam edəcək. Qeydiyyat Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin rəsmi veb-səhifəsində – emis.ge-də həyata keçiriləcək. Qeydiyyatı valideyn/qanuni nümayəndə aparır. Elektron qeydiyyatdan keçmiş şagirdin vacib sənədinin təqdim edilməsi iyunun 8-dən 22-nə qədər həyata keçiriləcək. Təyin edilmiş vaxtda sənədlər təqdim olunmazsa qeydiyyat avtomatik ləğv olunacaq.

**IV mərhələdə** qeydiyyat 24 iyundan 10 iyula qədər məktəblərdə həyata keçiriləcək. Bu mərhələdə azad olunan, yaxud boş qalmış yerlərə I, II və III mərhələlərdə qeydiyyatdan keçmiş, yaxud qeydiyyatı dəyişmək istəyən şagirdlər qeydiyyat olunacaq.

Məktəb dördüncü mərhələdə valideynin/qanuni nümayəndənin təqdim etdiyi vacib sənəd əsasında şagirdin qeydiyyatını təmin edir.

**Birinci sinfə qəbul olmaq üçün lazım olan sənədlər isə bunlardır:**

- Şagirdin qanuni nümayəndəsinin ərizəsi. Ərizə qanuni nümayəndənin yaşayış yeri və telefon nömrəsi ilə bağlı məlumatdan ibarət olmalıdır;
- Şagirdin doğum şəhadətnaməsi, yaxud şəxsiyyəti təsdiq edən sənədin surəti. Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin surəti (belə hal mövcud olarsa).

Nazirlik valideynləri qeydiyyat müddəti və şərtləri ilə diqqətlə tanış olmağa çağırır ki, uşaqları vaxtında və maneəsiz məktəbə qeydiyyat edə bilsinlər.

# MARTIN 15-DƏN SONRA DİSTANT QAYDADA TƏHSİL LƏĞV OLUNURMU?



Gürcüstan miqyasında məktəblərdə tədris prosesinin bərpa edilməsi məlum olan kimi müəyyən oldu ki, şagirdlərin böyük şəhərlərdə distant təhsil seçmək hüququ var. Müəllimlərə gəldikdə isə kimin sinif otağında, kimin distant qaydada dərs keçəcəyinə məktəb qərar verir. Bu, heç də asan tənzimlənən məsələ deyil.

İndi isə məlumat yayılıb ki, 15 mart tarixindən onlayn tədris seçmək hüququ ləğv edilir və dərslərin sinif otağında keçirilməsi məcburi olacaq.

Məsələ ilə bağlı Təhsil Nazirliyinə müraciət etdik. Nazirlikdən verilən məlumata əsasən, bu, yalnış məlumatdır və valideynlərin yenə də distant təhsil seçmək hüququ olacaq: ***“Bu sualla bizə də müraciət ediblər və düzünü desək, bilmirik niyə bu məsələ aktual olub. Çünki 15 martdan sonra da valideynlərin distant təhsili seçmək hüququ olacaq”.***

Aydındır ki, bu baxımdan heç nə dəyişmir. Ancaq maraqlıdır ki, belə məlumatlar haradan və niyə yayılır. Bildiyimiz kimi, bəzi məktəblər distant rejimdə, bəzisi isə sinif otağında tədrisi həyata keçirir.

# MÜƏLLİMLƏR İMTAHANINDA YAŞ MƏHDUDİYYƏTİ VARMI?



Müəllimlərin kompetensiyasını təsdiqləməsi imtahanında iştirak etmək istəyənlər üçün yaş məhdudiyyəti yoxdur. Bu barədə Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzindən bildiriblər.

Mərkəzin açıqlamasına görə, hər yaşda olan şəxslər imtahanda iştirak edə bilər. Ancaq müəllim olmaq istəyi olanlar imtahanda iştirak etmək üçün ilkin şərtləri nəzərə almalıdırlar.

**Kompetensiyanın təsdiqlənməsi imtahanında iştirak etmək hüququ olanlar:**

- Təcrübəçi müəllimlər;
- Bakalavr, maqistratura, yaxud ona bərabər akademik dərəcəsi olan şəxslər;
- Qeyd olunan bakalavr/maqistratura proqramının yekun kursunda təhsil alan şəxslər;
- Yaxud hərbi/idman üzrə peşə təhsili olan şəxslər;
- Diplomu əsasında müəllimlik hüququ olan, yaxud qeyd olunan təhsil proqramının yekun kursunda təhsil alan şəxslər.

---

*Səhifədəki məlumatlar “etaloni.ge” saytından götürülüb.*
*Gürcü dilindən tərcümə edən: Aynurə Əliyeva*

Təsisçi:
**“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”**

**Redaktor:** Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.